**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının
93-cü ildönümünə həsr olunmuş

# KİTABXANA-İNFORMASİYA ELMİ: TƏDRİS VƏ TƏCRÜBƏDƏ YENİ ÇAĞIRIŞLAR

***Beynəlxalq elmi konfransının materialları***

***5 may 2016-cı il***
***Bakı, Azərbaycan***

**UOT 021-028**
**K 76**

**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Fərəh Əliyeva** | *Sənətşünaslıq üzrə elmlər doktoru, professor ADMİU-nun rektoru, (sədr)* |
| **Kərim Tahirov** | *tarix üzrə fəlsəfə doktoru, professor AMK-nın direktoru, (sədr müavini)* |
| **Məryəm Əlizadə** | *sənətşünaslıq üzrə elmlər doktoru, professor, ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru, (sədr müavini)* |
| **Gülşən Əliyeva** | *filologiya üzrə elmlər doktoru, professor, ADMİU-nun Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru* |
| **Vasif Adilov** | *filologiya üzrə fəlsəfə doktoru, dosent ADMİU-nun "Kulturologiya" fakültəsinin dekanı* |
| **Aqşin Babayev** | *filologiya üzrə elmlər doktoru, professoru, ADMİU-nun "Ədəbi iş və ekran yaradıcılığı" kafedrasının müdiri* |

"Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar" Beynəlxalq elmi konfransının materialları /ADMİU, Azərbaycan Milli Kitabxanası; Tərt. N. Abdullayeva -B.: ADMİU mətbəəsi, 2016.- 309 səh.

**Yasəmən Sadıqova**
Azərbaycan Milli Kitabxanasında arxeologiya və etnoqrafiya üzrə sənəd kütləsinin yerləşməsinin bəzi məsələləri

**İradə Əliyeva**
Azərbaycanda ekologiya üzrə biblioqrafik resurslarin müasir aspektləri

**Aysel Cabbarova**
Azərbaycanda Biblioqrafik fəaliyyətin meydana gəlməsi və inkişafı

**Günel Hacıyeva**
Memarlıq və İnşaat sahəsinin kitabxana-informasiya təminatının təkmilləşdirilməsi yolları

**Vüsal Məmmədov**
Azərbaycana aid internet resurslarda muğamla bağlı başlıca informasiya mənbələri

**Aygün Səfərova**
Azərbaycanda kitabxanaların vahid biblioqrafik təsvir standartının tətbiqi problemləri və perspektivləri

**Sevda Kərimova**
Biznes mühiti və elektron informasiya resursları

**Günay Məmmədova**
"Vikipediya"- müasir, elektron ensiklopedik biblioqrafiya və istifadəsinə dair təkliflər

**Sevil Əliyeva**
Dünya və Azərbaycan ədəbiyyatında multikultural dəyərlər

**Hacı Qasımlı**
Azərbaycanda elmi kitabxanaların xarici ədəbiyyat üzrə nadir nəşrlər fondu diyarşünaslığa dair mühüm mənbə kimi

**Yasəmən Feyzulla qızı Sadıqova**
*Azərbaycan Milli Kitabxanası, böyük biblioqraf*
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, doktorant*
*yasaman.sadiqova@gmail.com*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA ARXEOLOGİYA VƏ ETNOQRAFİYA ÜZRƏ SƏNƏD KÜTLƏSİNİN YERLƏŞMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *Milli kitabxana, arxeologiya və etnoqrafiya, elektron bazalar, elektron kataloq, biblioqrafik informasiya.*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxana nəinki Azərbaycanda, eləcə də Qafqazda, ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir. Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir. Kitabxananın son 2015-ci il hesabatına əsasən onun fondunda **4 569 604** nüsxə ədəbiyyat toplanmışdır ki, bunun da **2 374 295** nüsxəsi kitab və kitabçalar**, 2 195 309** nüsxəsi isə digər sənədlərdir. **[6]**

Məqalədə Azərbaycan arxeologiya və etnoqrafiyasının sənəd kütləsinin toplanması, mühafizəsi, istifadəsinin təminatında M.F.Axundov adına Milli kitabxananın tutduğu yer araşdırılmışdır.

Ölkəmiz sivilizasiyanın ən qədim ocaqlarından biridir. Bunu deməyə Azərbaycan ərazisində aparılan və zəngin maddi mədəniyyət abidələrini üzə çıxaran arxeoloji və etnoqrafik tədqiqatların nəticələri əsas verir. XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq tədqiqatçılar tərəfindən erkən əkinçilik mədəniyyətinə aid yaşayış məskənləri, tunc dövrünün şəhərləri, antik və orta əsrlərə aid abidələr aşkar edilib öyrənilmişdir.

Hələ XVII əsrdə Naxçıvan ərazisinə səyahət edən Osmanlı yazarı və səyyahı Övliya Çələbi **[1]** 1672-ci ildə İran və Azərbaycanı səyahət etmiş fransız səyyahı Jan Şarden **[11]** və 1817-1820-ci illərdə Azərbaycanda, xüsusən Naxçıvanda olmuş digər fransız səyyahı Ker Porter **[5]** buranın yaşayış məskənləri və tarixi memarlıq abidələri haqqında geniş məlumat toplamışlar. Bundan başqa İsveçrəli səyyah Dyubua de Monpere 1834-cü ildə Azərbaycanda olmuş, Göygöl (Xanlar) rayonunda 30-a qədər müxtəlif kurqanlarda qazıntılar aparmış və Naxçıvandakı türbələrin qısaca siyahısını vermişdir. Səyyah Qafqazda apardığı araşdırmaları ümumiləşdirərək 1839-1844-cu illər ərzində "Qafqaz ətrafında səyahət" adlı 6 cildlik əsəri nəşr etdirmişdir **[8].** XIX əsrin iyirminci illərində Rusiyaya gəlmiş, Qafqaz canişinliyində işləmiş məşhur fransız səyyahı və etnoqrafı İvan İvanoviç Şopen general İ.F.Paskeviçin göstərişi ilə 1829-1832-ci illərdə nəşr etdirdiyi əsərlərində Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixi tədqiq etdiyi abidələr haqqında məlumatlar vermişdir **[9].**

XX əsrin sonlarında V.Belk, E.Resler Q.Rozendorf, J.de Morqan və başqa avropa mənşəli tədqiqatçılar Azərbaycanın müxtəlif ərazilərində sistemsiz və pərakəndə şəkildə tədqiqatlar aparılmışlar.

XX əsrin 20-ci illərindən sonra elmin digər sahələrində olduğu kimi arxeologiya və etnoqrafiya sahəsində də canlanma müşahidə olundu. Yeni yerli ixtisaslı kadrların hazırlanması və elmi mərkəzlərin yaradılması arxeoloji tədqiqatların elmi əsaslarla sistemli şəkildə aparılmasına şərait yaratdı. Arxeoloji tədqiqatlar 1923-cü ildə Bakıda yaranan Azərbaycanı Tədqiq və Öyrənən Cəmiyyət, 1927-ci ildə onu əvəz edən Azərbaycanın keçmişini tədqiq edən komitə və 1929-cu ildə yaranan Elmi Tədqiqat İnstitutu tərəfindən aparılırdı.

Artıq 30-cu illərdə Azərbaycan arxeologiyası üçün xeyli işlər görmüş akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında İ.M.Cəfərzadə, Ə.K.Ələkbərov və başqalarının iştirakı ilə Qarabağ, Naxçıvan və digər bölgələrə təşkil olunan ekspedisiyalarda arxeoloji abidələri tədqiq edərək bir sıra yeni nəticələr əldə edildi. Arxeoloqlar Ə.Ələkbərovun, İ.Cəfərzadənin, D.Şərifovun, S.Qazıyevin, Y.İ.Hummelin əsərləri arxeoloji ədəbiyyat kütləsinin formalaşmasında xüsusi rolu var.

1969-cu ildə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev Azərbaycan tarixinin öyrənib araşdırılmasına xüsusi diqqət ayırmağa başladı. Heydər Əliyevin imzaladığı qərara əsasən 1974-cü ildə yerli kadr potensialını nəzərə alaraq elmi tədqiqatların səmərəliliyini yüksəltmək məqsədi ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun tərkibində Arxeologiya və Etnoqrafiya Sektoru yaradıldı. Naxçıvan, Qəbələ, Şamaxı, Gəncə və digər bölgələrdə arxeoloji bazaların əsası qoyuldu. 70-80-ci illərdə çoxtəbəqəli arxeoloji qazıntılar aparılmağa başlanıldı. Artıq arxeologiya və etnoqrafiya sahəsi üzrə bir sıra mətbu orqanları yaradıldı və nəşr yeni edilən monoqrafiyaların ədəbiyyat kütləsinin nəzərəçarpacaq dərəcədə artması müşahidə olundu. Həmin dövrdə Kitab Palatasının təsis etdiyi cari biblioqrafik göstəricilərdə arxeologiya elminə dair nəşrlər ayrıca bölmə altında qruplaşdırılmağa başlandı.

Ölkəmiz müstəqillik əldə etdikdən sonar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 iyul tarixli qərarı ilə Arxeologiya və Etnoqrafiya Sektorunun bazasında müstəqil Arxeologiya və Etnoqrafiya İnstitutunun təsis edilməsi Azərbaycan arxeologiya və etnoqrafiya elminin daha geniş inkişafına zəmin yaratdı.

Bu gün sözü gedən sahəyə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 5 fevral 2008-ci il tarixli Sərəncamı ölkəmizin bütün bölgələrində arxeoloji tədqiqatların aparılmasına təkan verdi. Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Göytəpə arxeoloji parkının yaradılması ilə bağlı bəzi tədbirlər haqqında" 18 aprel 2012-ci il tarixli, "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 26 aprel 2012-ci il tarixli, "Muğan-Babacanlı abidələrinin 2800 illiyinin qeyd edilməsi haqqında" 29 oktyabr 2013-cü il tarixli sərəncamlar imzalayıb. **[7]**

Azərbaycanda arxeologiya və etnoqrafiya elmləri müəyyən tarixi inkişaf yolu keçmişdir. Bütün bu dövr ərzində arxeologiya və etnoqrafiya elmlərinin zəngin sənəd kütləsi formalaşmışdır.

M.F. Axundov adına Milli kitabxananın Azərbaycan arxeologiya və etnoqrafiya elminin informasiya təminatında mühüm rol oynayan mərkəzdir. Burada azərbaycan, rus, ingilis və digər xarici dillərdə arxeologiya və etnoqrafiyaya dair kitablar, jurnallar, ardı davam edən nəşrlər, qəzetlər, avtoreferat və dissertasiyalar və digər mənbələr toplanmışdır.

Milli kitabxananın arxeoloji və etnoqrafik ədəbiyyatın informasiya təminatında oynadığı roldan danışarkən onun biblioqrafik fəaliyyət istiqaməti üzərində dayanmaq məqsədəuyğundur.

M.F.Axundov adına Azərbaycan Milli kitabxanasının arxeologiya və etnoqraiya üzrə biblioqrafik informasiya axtarışını təmin edən vəsaitlərindən 2006-ci ildən tərtib edilən "Yeni kitablar" adlı cari biblioqrafik informasiya bülletenini göstərmək olar. Bu vəsaitdə yalnız Milli kitabxananın fonduna daxil olan ədəbiyyat (Kitab, dissertasiya və avtoreferatlar) öz əksinin tapıb. Burada ədəbiyyat azərbaycan və rus dillərində elm sahələri üzrə qruplaşdırılır. Annotasiyalı biblioqrafik vəsait 2007-ci ildən rüblük nəşr edilir. Arxeologiyaya dair ədəbiyyat "Tarix" elmləri sırasında "Arxeologiya" adlı yarımbölmədə qruplaşdırılıb. Müəlliflərin və sərlövhələrin əlifba göstəricisi, təsvirə əlavə edilən kitablara verilən kataloq şifrəsi oxucuların vəsaitdən istifadəsini asanlaşdırır, vaxta qənaət etməyə imkan yaradır.

Milli kitabxananın arxeoloji və etnoqrafik informasiyanın təminatındakı rolundan danışarkən "Mədəniyyət incəsənət və turizm haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisini göstərmək mütləqdir. Milli Kitabxanada 1975-ci ildə Mədəniyyət və incəsənət üzrə elmi informasiya şöbəsi fəaliyyətə başladı. 2006-cı ildə şöbənin adı dəyişirilərək Mədəniyyət üzrə informasiya adı altında fəaliyyət göstərdi. 2009-cu ilin fevral ayından isə kitabxana proseslərinin avtomatlaşdırma ilə əlaqədar olaraq müstəqil şöbə kimi dövrün tələblərinə uyğun - mədəniyyət, incəsənət, iqtisadiyyat, səhiyyə və digər sahələrdə soraq-informasiya xidməti ilə məşğul olaraq yeni adla – Analitik elektron məlumat bazasının təşkili şöbəsi kimi fəaliyyətini davam etdirir **[6].** Şöbənin başlıca məqsədi və vəzifəsi dövri mətbuat səhifələrindən respublikamıza aid dəyərli Azərbaycan və rus dilində olan məqalələri kitabxananın elektron kataloqunda əks etdirməkdir. Şöbə kitabxanaya daxil olan dövri mətbuat səhifələrindən respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrə, əlamətdar günlərə, elmin müxtəlif sahələrinə - mədəniyyət, incəsənət, iqtisadiyyat və s. sahələrə aid (Azərbaycan Respublikasının Qanunları, Fərmanları, Sərəncamları, Azərbaycan mədəni quruculuq, mədəni əlaqə, kitabxana işi, turizm, regionlar və s.) materialları araşdırıb ən yeni təsvir qaydasından istifadə edərək analitik yazılışını və tam mətnini elektron kataloqda yerləşdirir. Hər ay elektron bazaya ötürdüyü materiallar əsasında "Mədəniyyət incəsənət və turizm haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisini tərtib edir. Qeyd edək ki, bu vəsait şövə yaranan ildən nəşr edilib. Geniş oxucu kontingentini əhatə edən bu məlumat bülleteni 13 bölmədən ibarətdir. Bu bölmələrdən biri də "Tarixi və mədəniyyət abidələri" adlanır. Burada Azərbaycanın maddi və mədəni abidələri, arxeoloji və etnoqrafik tədqiqatlarla onların aşkarlanması, tədqiq və mühafisəzinə dair mənbələr qruplaşdırılır. Vəsait müəlliflərin əlifba göstəricisindən, istifadə olunmuş qəzet və jurnalların siyahısından ibarət köməkçi aparatı vəsait üzrə axtarışı daha səmərəli edir.

Vəsaitin yeni nəşrlərinə onu müasir və daha əlverişli edən əlavələr olunmuşdur. Belə ki, biblioqrafik yazıların qarşısında ulduz işarəsi (*) qoyulur. Bu o deməkdir ki, məqalələrin

tam elektron mətnini Milli kitabxananın saytından (www.anl.az) tam variantda oxumaq mümkündür. Yəni oxucu məqaləni bilavasitə kitabxananın "Dövri mətbuat zalına" müraciət etmədən əldə etmiş olur **[4].**

Müasir dövrdə kitabxanaların üzərinə ənənəvi məlumat məhsulları ilə bərabər avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiqindən bəhrələnib müasir məzmunlu məlumatların əldə edilməsi, qorunması və ötürülməsi kimi vəzifələr düşür. Bu sahədə Milli kitabxana xeyli işlər görmüşdür.

Son illərdə kitabxana işi sahəsində baş verən yeniliklər, xüsusilə, informasiya texnologiyalarının tətbiqinin elektron kitabxana və elektron kataloqların yaradılması Milli Kitabxanada həmişə yaradıcı şəkildə aparılmış, kitabxana proseslərinin avtomatlaşdırlması istiqamətində ilk addım atan kitab

xanalardan biri olmuşdur. 2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Sistemin proqram təminatı ABŞ-ın VTLS-kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir. Buraya elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, Milli biblioqrafiyanın yaradılması, bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir.

Hazırda elektron kataloq vasitəsilə kitabxananın (www.anl.az) saytına girməklə fondda olan çap məhsulatı vasitəsilə istənilən məlumatları, o cümlədər arxeoloji və etnoqrafiyaya dair əldə etmək mümkündür. Bütün məlumatlar MARC-21 formatında fonda daxil edilir. Milli Kitabxanada məlumat bazası yaradılarkən komplektləşmə zamanı ədəbiyyat ayrı-ayrı sahələr üzrə fonda daxil edilir. İlk növbədə: fonda daxil olan yeni ədəbiyyat; arxiv şöbəsində toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat; tammətnli resursların biblioqrafik yazılarının tərtib edilməsi üçün kitabxananın fondunda olan ədəbiyyat; ümumi fonda olan və format üzrə düzülmüş rus dilində olan ədəbiyyat **[2].** Bundan başqa məlumat bazasına azərbaycan və rus dillərində olan ədəbiyyatın növlərinə görə biblioqrafik yazılar daxil edilir: Monoqrafiyalar; seriya ilə nəşr olunan monoqrafiyalar; dissertasiyalar və avtoreferatlar; not – musiqi nəşləri; kartoqrafik nəşrlər; elektron resurslar. Bütün bunlarla yanaşı, məlumat bazasında digər xarici dillərdə olan ədəbiyyat növlərinin bilioqrafik yazıları elektron kataloqa daxil edilir. Hal hazırda kitabxananın elektron kataloqu üzrə axtarış apararkən arxeologiya üzrə 1150, etnoqrafiya üzrə 1333 sayda mənbə haqqında biblioqrafik məlumat əldə edilir.

Milli kitabxananın elektron məlumat bazaları var ki, bura da elektron kitabxana linki (keçid) vasitəsilə daxil olmaq olur. Burada Azərbaycanın görkəmli şəxsiyyətləri, şair, yazıçı, ictimai-siyasi xadimlər və başqalarının həyat və yaradıcılığı, kitabları, şəkillərindən ibarət fotoalbom və videogörüntülər elektron versiyada istifadəçilərə təqdim edilir. Belə məlumat bazalarından biri də Azərbaycan ərazisində yerləşən və dünyada ən qədim arxeoloji abidələrindən olan Qobustan abidələrinin məlumat bazasıdır. Baza 7 bolmədən ibarətdir:

- Qobustan rayonu haqqında, onun coğrafi mövqeyi, relyefi, təbiəti, iqlimi, iqtisadi xarakteristikası, maddi-mədəniyəti, qayaüstü rəsmlər haqqında məlumatlar;
- Qobustan dövlət tarixi-bədii qoruğu haqqında sənədlər;

- Qobustan tarixi və memarlıq abidələri haqqında (Diri Baba türbəsi, Şərar nekropolu, Qədirtəpə kurqanı, Cavanşir qalası, Pir Xanəgahı, mağaralar, məsçidlər, qədim yaşayış yerləri, köhnə qəbrstanlıqlar və s.)
- "Qobustan" sənət toplusu (Adı Qobbustanla bağlı olan dərgi haqqında)
- Videoqalereya (Qobustan haqqında filmlər)

Milli kitabxanada arxeologiya və etnoqrafiya elmləri üzrə informasiyanın toplanması, mühafizəsi, axtarışı, istər ənənəvi istərsə də elektron formatda istifadəsi mövcuddur və bu sahədə işlər daha da genişləndirilməkdədir.

## ƏDƏBİYYAT

1. Bayramlı Z., B Əzizli. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində. - Bakı, Azərbaycan.- 2000.- 160 s.
2. İsmayılov X. Kitabxana resurslarından istifadənin təşkilində informasiya-kommunikasiya txnologiyalarının tətbiqi (Milli kitabxananın iş təcrübəsi əsasında) //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal.- 2014.- № 2.- S.13-21.
3. Kərimov T. Milli Kitabxana elektronlaşdırılır //Üç nöqtə.- 2005.- 27 avqust
4. Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat: cari biblioqrafik informasiya göstəricisi: Yanvar - 2015 /baş red. və bur. məsul K.Tahirov; bur. haz. Analitik Elektron Məlumat Bazasının Təşkili şöbəsi; red. D.Sadıxova, N.Səlimova. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2015.- 66 s.
5. Porter K. Travels autour du Coucase, p, IV, Travels autour du Coucase, p, IV, pp. 9-10.
6. www.anl.az
7. www.e-qanun.az
8. Дюдуа де Монпере Фредрик. Путешествие вокрег Кавказа. Черкесов и Абхазов, в Колхиде, в Грузии в Армении м в Крыму. Том.I /Пер. с франц. Н.А.Данкевич-Пущиной.- Сухуми.- Абгиз, 1937.- 175 с.
9. Ивановский А. А. По Закавказью. Археологические наблюдения и исследования 1893, 1894 и 1896 гг //Материалы по археологии Кавказа. - Москва, 1911. - № VI.- С. 148.
10. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд //Сборник материалов для описания местностей и племен Кавказа. Выпуск второй, Тифлис, 1882.-с 142
11. Путешествие Шардена по Закавказью в 1672-1673 гг. /Перевод Е. В. Бахутовой и Д. П. Косовича.- Тифлис.- 1902.- 301 с.

**Yasaman Sadigova**

## SOME ISSUES OF THE DOCUMENT SUPPLY ON ARCHAEOLOGY AND ETHNOGRAPHY SETTLED IN AZERBAIJAN NATIONAL LIBRARY

**Summary**

*In the article was investigated the place of National Library of Azerbaijan on the provision of information of archeology and ethnography.*